## HAFİZ PAŞAYEVİN DƏYƏRLİ FİKİRLƏRİNDƏN SİTATLAR

Azərbaycan müəllimlərinin XVI qurultayında ADA Universitetinin rektoru Hafiz Paşayevin çıxışından:

“Xüsusilə vurğulamaq istərdim ki, ədəbiyyat dərsinə sadəcə dərs kimi baxmaq lazım deyil. Dövlət Strategiyasının tələbinə uyğun “demokratiya prinsiplərinə və xalqın milli ənənələrinə, Azərbaycançılıq ideyalarına sadiq qalan, müstəqil və yaradıcı düşünən vətəndaş yetişdirməyin” ən təsirli yolu gəncləri bədii ədəbiyyata həvəsləndirməkdir. Onların xasiyyətinin kamilləşməsi, müəyyən peşəni sevməsi, həyata münasibətinin formalaşmasında ədəbiyyatın, xüsusən də, klassik əsərlərin təsiri böyükdür. Bu yolla hətta tarixin də daha həvəslə öyrənilməsinə nail ola bilərik. Odur ki, ədəbiyyat dərsinin məzmununa, metodikasına, təşkilinə daha çox diqqət ayrılmalıdır.”

***

“Təhsilə qoyulan sərmayə ölkənin davamlı inkişafı üçün ən effektiv yollardandır”.

***

“Biz hər birimiz öz yerimizdə elə işləyək ki, ümumi işə töhfə olsun. Hər bir işin əsasında təhsil durur. Hamı əsgər olub bilavasitə gedib vuruşa bilməz. Lazım olsa, əlbəttə vuruşar. Hərə öz işində effektiv olmalı, öz işini ləyaqətlə, şəhidlərin vəzifələrini yerinə yetirərkən göstərdikləri ehtirasla görməlidir. Azərbaycanın inkişaf tarixinin ən vacib mərhələsindəyik”.

***

"Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında suverenliyini möhkəmləndirəcək yenidənqurma işlərinin ən qabaqcıl və müasir şəkildə aparılmasına dair Prezidentin tapşırıqları ölkənin təhsil və elm icması qarşısında yeni vəzifələr qoyur. Böyük Qayıdış prosesinin hərtərəfli həyata keçirilməsi və gələcək nəsillər üçün dayanıqlı olması ölkədə mükəmməl təhsilli insan kapitalının yetişdirilməsini zərurət edir".

***

“ADA Universitetinin yaradılması Azərbaycanın təhsil sistemində mühüm hadisədir”

***

“Hər bir təhsil və elm ocağının ürəyi kitabxanadır. Təhsil ocağının faydası və işi ümumən kitabxananın səmərəli fəaliyyətindən asılıdır”.

***